Türkiyəli jurnalistin adı “qara siyahı”ndan çıxarıldı

Yazan
11.12.13 22:05 -



Türkiyənin tanınmış jurnalisti, “Milliyet” qəzetinin yazarı və “CNN Türk”ün əməkdaşı Nagehan Alçının adı Azərbaycanda “qara siyahı”dan çıxarılıb.

Azərbaycan XİN-in saytındakı “arzuolunmaz şəxslər”in siyahısında artıq N. Alçının adı yoxdur.

Xatırladaq ki, N. Alçı Azərbaycana səfər etmək üçün adının “qara siyahı”dan çıxarılması xahişi ilə rəsmi Bakıya müraciət etmişdi. O, müraciətində Azərbaycanın ərazi bütövlüyünə hörmət etdiyini bildirib.

Qeyd edək ki, N. Alçı 2009-cu ilin noyabrında Azərbaycanın işğal olunmuş Dağlıq Qarabağ bölgəsinə qanunsuz səfər etdiyi üçün onun adı “qara siyahı”ya salınıb.

Siyahıda əvvəlcə 331 nəfərin adı vardı. Müvafiq izahatla Azərbaycan tərəfinə müraciət etdikdən sonra onlardan bəzilərinin adları siyahıdan çıxarılıb.

Bu şəxslərin arasında Rusiya Dövlət Dumasının deputatı Aleksey Mitrofanov, “Amerikanın səsi” radiosunun Moskva bürosunun rəhbəri Ceyms Bruk, Con Hopkins Universitetinin tələbələri İvan Benoviç, Nikolas Vondra və italiyalı müğənni Al Bano da var.